**Günay Seyidova**
*Azərbaycan Dillər Universiteti*

**10.30546/2518-752X.1.601.0116**

# BAKALAVRİAT SƏVİYYƏSİNDƏ TƏHSİL ALANLARIN MƏNİMSƏMƏ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *mənimsəmə xüsusiyyətləri, akademik nailiyyətlər, koqnitiv inkişaf, sosial öyrənmə, pedaqoji yanaşmalar, innovativ tədris metodları.*

***Keywords:*** *learning characteristics, academic achievement, cognitive development, social learning, pedagogical approaches, innovative teaching methods*

***Ключевые слова:*** *особенности усвоения, академические достижения, когнитивное развитие, социальное обучение, педагогические подходы, инновационные методы обучения*

**Giriş.** Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətləri, onların akademik nailiyyətlərini müəyyən edən əsas amillərdən biri hesab olunur. Təhsil sistemində tətbiq edilən müxtəlif innovativ metodlar, tələbələrin idraki inkişafı, motivasiya səviyyəsi və sosial amillərlə sıx bağlıdır. Müasir dövrdə tələbələrin mənimsəmə xüsusiyyətləri qloballaşma, texnologiya və yeni pedaqoji yanaşmaların təsiri ilə dəyişməkdədir. Məhz bu səbəbdən, bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə prosesinin daha dərindən öyrənilməsi və bu prosesin təkmilləşdirilməsi üçün effektiv metodların tətbiqi vacibdir.

Mənimsəmə prosesi tələbələrin fərdi xüsusiyyətləri ilə yanaşı, onların təhsil aldıqları mühit və istifadə edilən pedaqoji metodlarla da sıx əlaqəlidir. Bakalavriat təhsilinin əsas məqsədlərindən biri tələbələrə bilik və bacarıqları effektiv şəkildə öyrətməklə onların gələcək peşəkar inkişafına töhfə verməkdir. Bu məqsədə nail olmaq üçün ənənəvi və innovativ tədris metodlarının balanslı şəkildə tətbiqi, rəqəmsal resurslardan səmərəli istifadə və tələbələrin aktiv öyrənmə prosesinə cəlb edilməsi mühüm rol oynayır. Bakalavr səviyyəsində təhsil alan tələbələrin öyrənmə xüsusiyyətləri təhsil və inkişaf nəzəriyyələri sahəsində müxtəlif alimlər tərəfindən tədqiq edilmiş və onlar öz əsərləri ilə bu mövzuya töhfə vermişlər.

Jan Piaje – *“Koqnitiv İnkişaf Nəzəriyyəsi”* → Piaje uşaqların və gənclərin öyrənmə və inkişaf proseslərini təhlil etmişdir. Onun “konstruktivizm” nəzəriyyəsi tələbələrin təcrübə və mövcud biliklər əsasında yeni bilikləri necə mənimsədiklərini açıqlayır. Piaje'nin nəzəriyyəsinə bakalavriat səviyyəsində tələbələrin koqnitiv inkişafını izah etmək üçün geniş müraciət olunur.

Lev Vıqotski – *“Sosial İnkişaf Nəzəriyyəsi”* → Vıqotski öyrənmənin sosial və mədəni kontekstini vurğulayaraq, tələbələrin təhsil prosesində sosial qarşılıqlı əlaqələrin və dilin rolunu araşdırmışdır. Onun “Proksimal İnkişaf Zonası” anlayışı bakalavriat tələbələrinin təhsil mühitində öz potensial və dəstəklərindən necə istifadə etdiklərini izah edir.

Jerom Bruner – *“Aktiv Öyrənmə”* → Bruner vurğulamışdır ki, öyrənmə təkcə bilik əldə etmək deyil, həm də tələbələrin fəal şəkildə məlumat axtarmaq və öz

təcrübələrindən öyrənməkdir. O, "şəxsi təcrübə yolu ilə öyrənmə" prinsipini tətbiq edərək bakalavriat səviyyəsində tələbələrin öyrənmə metodlarını və nəzəriyyə ilə əlaqələrini təhlil etmişdir.

Devid Kolb – "Təcrübəli öyrənmə nəzəriyyəsi" → Kolb öyrənmənin dörd mərhələsini təsvir edən bir model hazırlamışdır: *təcrübə, refleksiya, konseptuallaşdırma və təcrübə*. Bu nəzəriyyədən tələbələrin fərqli öyrənmə üslublarını və təcrübə əsasında mənimsəmə xüsusiyyətlərini başa düşmək üçün istifadə olunur.

Albert Bandura – "Sosial Öyrənmə Nəzəriyyəsi" → Bandura sosial öyrənmə nəzəriyyəsini inkişaf etdirərək, insanların başqalarının davranışlarını müşahidə edərək öyrəndiklərini vurğulamışdır. Onun nəzəriyyəsi bakalavriat tələbələrinin təhsil mühitində sosial qarşılıqlı əlaqələrdən necə faydalandığını və bilikləri hansı yollarla mənimsədiklərini izah edir.

Hovard Qardnerin – "Çoxşaxəli intellekt nəzəriyyəsi" → Qardner müxtəlif zəka tiplərinin (məsələn, riyazi-məntiq, vizual-məkan, musiqi-ritmik və s.) insanların öyrənmə prosesini fərqli şəkildə təsir etdiyini göstərmişdir. Onun nəzəriyyəsi bakalavriat səviyyəsində tələbələrin fərdi öyrənmə üslublarını və mənimsəmə xüsusiyyətlərini açıqlamaq üçün əhəmiyyətlidir.

Con Dyui – "Təcrübə və təhsil" → Dyui təhsilin təcrübə və fəaliyyətlə əlaqəli olduğunu qeyd etmişdir. Onun yanaşması tələbələrin təcrübələrini tədris prosesində necə istifadə etdiklərini və bu təcrübələrin onların mənimsəmə qabiliyyətinə necə təsir etdiyini izah edir.

Karol Dvek – "Çevik Zəka" nəzəriyyəsi" → Dvek, "böyümə zəkası" anlayışını inkişaf etdirərək, tələbələrin öz bacarıqlarını inkişaf etdirmək və uğursuzluqlardan öyrənmək qabiliyyətlərini vurğulamışdır. Onun araşdırmaları bakalavriat tələbələrinin motivasiyası və daxili amillərinin mənimsəmə prosesinə təsir etdiyini göstərir [3, s 654-658].

Yuxarı adları qeyd olunan alimlərin əsərləri bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətlərini və onların təhsil prosesindəki inkişafını izah etməkdə mühüm rol oynayır. Onların nəzəriyyələri innovativ pedaqogikanın əsas prinsiplərini formalaşdırır. Bakalavriat səviyyəsində tələbələrin mənimsəmə xüsusiyyətlərinə təsir edən əsas amillərə daxildir:

1. **Fərdi xüsusiyyətlər:** *Zəka, yaddaş, diqqət, öyrənmə tərzi və düşüncə tipləri, kreativ və analitik düşünmə qabiliyyəti, motivasiya və emosional intellekt, emosional intellekt və stressə dözümlülük.*

– *Zəka və idrak qabiliyyəti.* Tələbənin zəka səviyyəsi yeni məlumatları nə dərəcədə sürətlə və effektiv şəkildə mənimsədiyini müəyyən edir. İdrak qabiliyyəti yüksək olan tələbələr daha yaxşı analitik bacarıqlara malikdirlər və məlumatı daha sürətli anlamağa meyl edirlər.

– *Yaddaş və diqqət.* Yaddaşın gücü tələbənin öyrəndikləri məlumatı uzun müddət yadda saxlama qabiliyyətini təyin edir. Diqqət isə tələbənin dərsə nə dərəcədə fokuslandığını göstərir və bu, onun öyrənmə prosesinin effektivliyinə təsir edir.

– *Öyrənmə tərzi və düşüncə tipləri.* Hər tələbənin öz öyrənmə üsulu (vizual, kinestetik, audial və s.) vardır. Tələbənin düşüncə tərzi (analitik və ya yaradıcı düşünmə) onun öyrənmə metodlarını və məsələlərə yanaşma formasını müəyyən edir.

– *Kreativ və analitik düşünmə qabiliyyəti.* Kreativlik tələbənin yeni və qeyri-adi həllər tapmasına kömək edir. Analitik düşünmə isə tələbəyə məlumatı təhlil etmə və müvafiq nəticələr çıxarmaq qabiliyyəti verir.

– *Motivasiya.* Motivasiya, tələbənin öyrənmə prosesinə olan yanaşmasını və əzmini müəyyən edən əsas amildir. Tələbənin öyrənməyə olan marağı və həvəsi onun akademik uğurlarını təsir edir. Maraqlı bir təhsil mühiti tələbənin daha çox öyrənmək istəyini artırır.

– *Emosional intellekt və stressə dözümlülük:* Emosional intellect tələbənin öz və başqalarının hisslərini başa düşməsi və idarə etməsi bacarığıdır. Bu, tədris mühitində tələbənin sosial münasibətlərini və öyrənmə prosesini asanlaşdırır. Stressə dözümlülük isə tələbənin çətinliklərlə qarşılaşdıqda müsbət qalmasına kömək edir [3, s.654-658].

**2. Sosial və akademik mühit:** *Təhsil müəssisəsinin imkanları, müəllim-tələbə münasibətləri, ailə və cəmiyyətin rolu, sosial dəstək və tələbə təşkilatları, tələbənin məqsəd və gözləntiləri, tədris materialına yanaşma və aktiv iştirak, akademik nailiyyət və karyera hədəfləri.*

– *Təhsil müəssisəsinin imkanları:* Təhsil müəssisəsinin təklif etdiyi resurslar (laboratoriyalar, kitabxanalar, onlayn təhsil platformaları) tələbələrin tədris materialına daha asan və effektiv şəkildə daxil olmalarına imkan verir. Bu mühitin zəngin olması tələbənin öyrənmə təcrübəsini yaxşılaşdırır.

– *Müəllim və tələbə münasibətləri.* Müəllimlə tələbə arasındakı münasibət, tədrisin effektivliyini artırır. Yaxşı və motivasiyaedici müəllimlər tələbələrin öyrənmə prosesinə daha çox dərinləşmələrinə şərait yaradırlar.

– *Ailə və cəmiyyətin rolu.* Ailənin və cəmiyyətin təhsilə yanaşması, tələbənin təhsilinə olan motivasiyasını və şəraitini təsir edir. Təhsil sahəsinə olan diqqət və dəstək tələbənin uğurlu olmasına kömək edir.

– *Sosial dəstək və tələbə təşkilatları:* Tələbələr arasında qurulan sosial əlaqələr, onların qarşılıqlı dəstəyi və əməkdaşlıq etməsi onların öyrənmə prosesini gücləndirir. Tələbə icmaları, müzakirə və təcrübə paylaşma mühiti yaradır.

– *Tələbənin məqsəd və gözləntiləri:* Hər tələbənin təhsilə dair şəxsi məqsədləri və gözləntiləri vardır. Bu məqsədlər akademik uğurlarına və öyrənmə prosesinə yanaşmalarına təsir edir. Məqsədli tələbələr motivasiyalı olur və məqsədlərinə çatmaq üçün daha çox əzmkarlıq göstərirlər.

– *Tədris materialına yanaşma və aktiv iştirak:* Tələbənin dərslərə yanaşması, dərs materialına necə reaksiya verməsi və müzakirələrdə aktiv iştirak etməsi onun öyrənmə səviyyəsini müəyyən edir.

– *Akademik nailiyyət və karyera hədəfləri:* Tələbənin gələcək karyera planları və akademik uğurlarına olan bağlılığı onu daha çox motivasiya edir. Gələcək məqsədlərini müəyyən edən tələbələr dərslərə daha çox diqqət ayırır və daha uğurlu olurlar.

**3. Pedaqoji metodlar və texnologiyalar:** *İnteraktiv təlim metodları, problem əsaslı öyrənmə, rəqəmsal texnologiyalar və distant təhsil imkanları.*

– ***İnteraktiv təlim metodları.*** İnteraktiv təlim tələbələrin təlim prosesində aktiv iştirakını təmin edən yanaşmadır. Əsas məqsəd təlimin müəllim mərkəzli deyil, **tələbə mərkəzli** olmasıdır. Bu metodlar tənqidi düşünmə, əməkdaşlıq və yaradıcılığı təşviq edir. Tələbələr arasında qrup işləri, müxtəlif ideyaların mübadiləsi və əməkdaşlıq tələbənin öyrənmə prosesini inkişaf etdirir. Bu metod daha dərin təhlili və problemi birlikdə həll etmə bacarığını gücləndirir.

– ***Problem əsaslı öyrənmə.*** Bu metod **real problemlərin** həllinə yönəlmiş, araşdırma və analizə əsaslanan təlim növüdür. Tələbələrə hazır biliklər verilmək-

dənsə, onlar problemi araşdıraraq və düşünərək real və ya simulyasiya olunmuş situasiyalar əsasında öyrənərək özləri nəticəyə gəlirlər.

– ***Rəqəmsal texnologiyaların tətbiqi***. Müasir təhsil mühitində rəqəmsal alətlər tədrisin ayrılmaz hissəsinə çevrilmişdir. Bu texnologiyalar dərslərin effektivliyini və əlçatanlığını artırır. Əsas **tətbiqi sahələrinə interaktiv lövhələr və proyektorlar, təhsil platformaları (Moodle, Google Classroom, Teams və s.)**, **multimedia vasitələri (video dərslər, animasiyalar, simulyasiyalar)**, **əlavə reallıq (AR) və virtual reallıq (VR) texnologiyaları** v s daxildir.

– ***Distant təhsil imkanları***. Distant təhsil – müəllim və tələbələrin eyni məkanda olmadan tədris prosesini həyata keçirməsinə imkan verən bir formatdır. Xüsusilə pandemiya dövründə bu modelin rolu daha da artmışdır [1, s.47-52].

Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətləri, bu prosesə təsir edən amillər və tədris keyfiyyətinin yüksəldilməsinə xidmət edən innovativ metodlar vasitəsilə təhlil olunur. Məqsəd, tələbələrin daha effektiv mənimsəmə strategiyaları ilə təchiz olunmasını təmin etmək və onların akademik müvəffəqiyyətini artırmaq üçün təhsil prosesinin optimallaşdırılması yollarını araşdırmaqdır. Mənimsəmə prosesi tələbələrin fərdi xüsusiyyətləri, tədris metodları və təhsil mühitinə bağlı olaraq dəyişir. Bu amillərin inteqrasiyası tələbənin mənimsəmə prosesinə necə təsir etdiyini və hansı yollarla bu prosesi optimallaşdırmaq olduğunu başa düşməyə kömək edir. Müasir pedaqoji yanaşmalar, bu amilləri nəzərə alaraq, daha səmərəli və fərdi tələblərə uyğun tədris metodlarının tətbiqini təmin edir. Mənimsəmə prosesi daha effektiv şəkildə həyata keçirilmək üçün müxtəlif yanaşmalardan istifadə edilir. Bu yanaşmalar arasında fasilitasiyaedici təlim mühüm rol oynayır. Belə ki:

*"Fasilitasiyaedici təlim tələbənin öz bilik və bacarıqlarını inkişaf etdirməsinə, müstəqil düşünmə və problem həll etmə qabiliyyətinə malik olmasına şərait yaradır. Müəllimlər bu yanaşmada rəhbər rolunu oynayır və tələbələrin suallar verməsini, problemləri həll etməsini və öz ideyalarını sərbəst ifadə etməsini təşviq edirlər"* [1, s. s. 47-52].

Tələbələrin real problemləri həll etməsi üçün düşüncə və araşdırma bacarıqlarını inkişaf etdirmək məqsədilə bir çox yanaşmalar tətbiq edilir. Bu yanaşmalardan Layihə əsaslı təlim yanaşması tələbələrin tənqidi düşünmə qabiliyyətini və analitik bacarıqlarını artırır. Eyni zamanda tələbələrə konkret layihə üzərində işləmək və nəzəri biliklərini praktikada tətbiq etmək imkanı qazandırır. Bu metod tələbələrin komandada işləmək, məsuliyyət daşımaq və öz fikirlərini əsaslandırmaq bacarıqlarını inkişaf etdirir.

Müasir təhsildə fərdiləşdirilmiş yanaşmanın ən qabaqcıl formalarından biri adaptiv öyrənmədir. Adaptiv Öyrənmə tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların öyrənmə tempinə uyğun məzmun təqdim edir. Hər bir tələbənin fərdi öyrənmə üslubuna, bilik səviyyəsinə, sürətinə və tələbə ehtiyaclarına uyğun olaraq dinamik şəkildə məzmunun, tapşırıqların və resursların təqdim olunmasını nəzərdə tutur. Tələbənin cavablarına və fəaliyyətinə əsasən sistem dərhal yönləndirmə edir. Tapşırıqların çətinlik səviyyəsi və təqdim olunan mövzular tələbənin performansına uyğun dəyişir. Süni intellekt və "big data" texnologiyalarının tətbiqi bu metodun səmərəliliyini artırır.

Bakalavriat səviyyəsində tələbələrin mənimsəmə səviyyəsini qiymətləndirmək üçün müxtəlif ölçmə və dəyərləndirmə metodlarından istifadə edilir:

- *Test və imtahanlar*
- *Portfolio və layihə əsaslı qiymətləndirmə*
- *Davamlı formativ qiymətləndirmə*
- *Reflektiv esse və tələbə gündəlikləri*
- *Mütəxəssislər tərəfindən verilən rəy və fiks-feedback mexanizmləri*

Son dövr bu istiqamətdə aparılan tədqiqatlarda təhsil keyfiyyətinin artırılması və tələbələrin daha yaxşı mənimsəməsi üçün aşağıdakı təkliflər irəli sürülür:

- Fərdi yanaşma metodunun genişləndirilməsi;
- Tələbələrin aktiv iştirakı üçün motivasiyaedici metodlardan istifadə edilməsi;
- Müəllimlərin innovativ tədris metodları ilə təlimatlandırılması;
- Rəqəmsal texnologiyaların daha geniş tətbiqi;
- Praktik və interaktiv tədris üsullarının inkişaf etdirilməsi;
- Multidissiplinar yanaşmaların təhsil prosesinə inteqrasiyası [7].

**İşin Aktuallığı.**Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətlərinin öyrənilməsi müasir təhsil sistemində prioritet istiqamətlərdən biridir. Qloballaşma, texnologiyanın inkişafı və yeni pedaqoji yanaşmalar təhsil prosesinə ciddi təsir göstərir. Bu baxımdan tələbələrin fərdi öyrənmə üslublarının, idraki qabiliyyətlərinin, motivasiya səviyyələrinin və sosial mühitlə qarşılıqlı təsirlərinin analizi vacibdir. Təhsil müəssisələrində innovativ metodların və rəqəmsal texnologiyaların tətbiqi tələbələrin akademik və peşəkar inkişafını daha səmərəli şəkildə təmin edir. Mənimsəmə prosesinin optimallaşdırılması həm təhsil keyfiyyətinin yüksəldilməsinə, həm də tələbələrin fərdi potensialının reallaşdırılmasına xidmət edir.

**Elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi tələbələrin mənimsəmə xüsusiyyətlərinin kompleks yanaşma əsasında araşdırılmasında və müasir pedaqoji texnologiyaların tətbiqinin təhlilində özünü göstərir. Buraya adaptiv öyrənmə, fasilitasiyaedici təlim, layihə əsaslı öyrənmə və rəqəmsal texnologiyaların istifadəsi daxildir. Tədqiqat bakalavriat səviyyəsində fərdi öyrənmə xüsusiyyətlərinin akademik nəticələr və tədris metodları ilə əlaqəsini sistemli şəkildə göstərir, mənimsəmə prosesini daha effektiv etmək üçün metodoloji tövsiyələr təqdim edir. Beləliklə, bu iş həm təhsil elminə, həm də praktik pedaqoji fəaliyyətə töhfə verir.

**Nəticə.** Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətləri onların akademik və peşəkar inkişafında mühüm rol oynayır. Müasir tədris metodları və innovativ yanaşmalar bu prosesi daha effektiv və məhsuldar edə bilər. Belə ki, mərkəzli təhsil strategiyalarının tətbiqi, tədris keyfiyyətinin artırılması və tələbələrin fərdi xüsusiyyətlərinin nəzərə alınması təhsilin səmərəliliyini daha da yüksəldəcəkdir. Mənimsəmə prosesini daha səmərəli etmək üçün innovativ metodların tətbiqi və adaptiv yanaşmaların inkişaf etdirilməsi təhsil sektorunda uğurlu nəticələrə səbəb olacaqdır. Bu sahədə aparılan araşdırmalar və yeni texnologiyaların tətbiqi bakalavriat səviyyəsində tədrisin keyfiyyətini artırmağa mühüm töhfə verəcəkdir.

**Ədəbiyyat:**


1. Komarraju, M., Karau, S. J., & Schmeck, R. R. "*Learning and Individual Differences*", 19(1), 2009, p. 47-52.
2. Noftle, E. E., & Robins, R. W. "*Journal of Personality and Social Psychology*", 2007, 93(1), 116–130.
3. John, O. P., Robins, R. W., & Pervin, L. A. *Handbook of Personality: Theory and Research (3rd ed.).* The Guilford Press., 2008, p. 654-658

4. Roberts, B. W., & Hogan, R. (Eds.). "*Personality Psychology in the Workplace".* American Psychological Association., 2001, p.440
5. Schunk, D. H., Pintrich, P. R., & Meece, J. L. (2014). *Motivation in Education: Theory, Research, and Applications (4th ed.).* Pearson Higher Ed., 2014 p.504
6. https://www.researchgate.net/publication/390224047_Personality_Traits_and_Learning_Styles_in_Undergraduate_Students
7. https://collegejourney.ai/blog/thriving/describe-students-personality
8. https://www.sciencedirect.com/science/article/abs/pii/S1041608008000587
9. https://www.researchgate.net/publication/353276690_The_Big_Five_Personality_Traits_and_Academic_Performance_A_Meta-Analysis

**Gunay Seyidova**

**Summary**

**LEARNING CHARACTERISTICS OF UNDERGRADUATE STUDENTS**

The acquisition characteristics of undergraduate students are investigated within the framework of various pedagogical approaches, cognitive development models and social learning theories. Studies show that students' academic achievements are closely related to their learning styles, motivation levels and the use of interactive teaching methods. The application of innovative educational technologies, problem-based learning and project-based approaches in the modern educational process increases students' cognitive activity and independent thinking skills. At the same time, the social learning environment, teacher-student and student-student interaction, as well as differential approaches create conditions for students to form more effective acquisition strategies. The use of interactive methods in the educational process has a positive effect on students' integration of theoretical knowledge with practical skills and the development of critical thinking abilities.

**Гюнай Сеидова**

**Резюме**

**ОСОБЕННОСТИ УСВОЕНИЯ ЗНАНИЙ СТУДЕНТАМИ БАКАЛАВРИАТА**

Особенности усвоения знаний студентами бакалавриата рассматриваются в рамках различных педагогических подходов, моделей когнитивного развития и теорий социального обучения. Исследования показывают, что академическая успеваемость студентов тесно связана с их стилем обучения, уровнем мотивации и использованием интерактивных методов обучения. Применение инновационных образовательных технологий, проблемного обучения и проектного подхода в современном учебном процессе повышает познавательную активность и самостоятельность мышления учащихся. Кроме того, социальная среда обучения, взаимодействие учителя и ученика и ученика и ученика, а также дифференцированные подходы позволяют учащимся формировать более эффективные стратегии обучения. Использование интерактивных методов в образовательном процессе оказывает положительное влияние на интеграцию теоретических знаний с практическими навыками и развитие у студентов способностей критического мышления.

*Rəyçi: b/m. G.Abdullayeva*